# GÖYÇAY: SOSİAL-MƏDƏNİ YÜKSƏLİŞ VƏ MODERNLƏŞMƏ NÜMUNƏSİ



### *Sevincləri necə paylaşmalı?*

**Azərbaycanımız artıq illərlə deyil, sanki gündən-günə inkişaf edir, müasirləşir, daim yüksəlişdə olan stabil ölkələr sırasında yetərincə tanınır və möhkəmlənir. Bütün bunlar ulu öndər Heydər Əliyev siyasətinin uzaqgörənliyinin və Müstəqil Azərbaycan sevgisinin mükəmməl davamıdır. Azərbaycan Respublikasının Prezidenti Cənab İlham Əliyevin apardığı uğurlu daxili və xarici siyasətin töhfələri bu gün ölkə həyatının bütün istiqamətlərində böyük inam və xoş duyğularla yaşanır. Cənab prezident respublikamızın daha da yüksəlməsi, qüdrətlənməsi, eyni zamanda insanların xoşbəxt yaşaması üçün dövləti daha yüksək səviyyədə səfərbər etməkdədir. Azərbaycanın bu səviyyəsini gözügötürməyənlər üçün, bizə düşmən olan bədnam Ermənistan üçün də sanki bir hazırlıq dərsi də keçirilir. Münhendəki məlum görüşdə biz bunun bir daha şahidi olduq. Əsl master-klass idi! Bütün xalqımız qürurlandı...**



Hər yerdə olduğu kimi Göyçay rayonunda da ölkəmizin uğurları bütün sakinləri sevindirir, insanlar dövlətimizin siyasətini dəstəkləyir, cənab prezidentə minnətdar olduqlarını bildirirlər. Çünki ümumi nailiyyətlərlə yanaşı, Göyçay rayonunun özü də son illər sosial- iqtisadi və mədəni yüksəlişin sevincini yaşayır, daha gözəl gələcək üçün inamla çalışır.

### *Ən çətin vəzifələrin öhdəsindən gəlmək bacarığı*

***Əlbətdə, dövlət qayğısı ilə yanaşı, yerli idarəetmədən də çox şey asılıdır. Təbii ki, bunun əsas yükü rayon rəhbərliyinin üzərindədir. Bu mənada Göyçay Rayon İcra Hakimiyyətinin başçısı Mehdi Səlimzadənin işgüzar və yaradıcı fəaliyyəti nümunədir, təqdirəlayiqdir. Rayon rəhbəri elə bu səbəbdən də ən çətin vəzifələrin öhdəsindən bacarıqla gəlir, yalnız uğurlara inanır. Fakt və misallar çoxdur, bunları zaman-zaman diqqətə çatdırmışıq. Yəni rayon mərkəzi ilə yanaşı, kəndlərin də infrastruktur yüksəlişi, yeni iş yerlərinin yaradılması, müasirləşən kadr siyasəti, bütün bunların nəticəsi olaraq sosial-iqtisadi və mədəni nailiyyətlər göyçaylıları daha da ruhlandırır.***

*Bu gün ən üzdə olan məsələlərdən biri də şəhərin müasirləşməsi fonunda keçmişlərdən qalan bir sıra çatışmazlıqların cəsarətlə aradan qaldırılmasıdır. Bir-birinə paralel və ya kəsişən küçələrin bəzi yerlərindəki köhnə tikililəri müasir binalarla əvəzləmək elə də asan məsələ deyil, uzun illərə hesablanan bir işdir. Ancaq bu gün şəhərin mərkəzi hissəsində bir-birindən gözəl bina və qurğuların tikilib istifadəyə verilməsində, Göyçay şəhərinin modernləşməsində və daha da gözəlləşməsində rayona rəhbərlik edən şəxsin müstəsna rolu danılmazdır. Müəyyən bir sahədə nümunəvi çalışmaq təkcə həmin yerə, həmin rayona deyil, bütövlükdə respublikaya və ali rəhbərliyə hörmət və ehtiramın səmimiliyindən irəli gəlir.*

### *Prezident qayğısı və ehtimadın doğrulması*

Göyçayda keçirilən 2019-cu ilin yekunlarına və qarşıda duran vəzifələrə həsr olunmuş iclasda rayon həyatının bütün istiqamətləri üzrə məsələlər diqqət mərkəzində olmuşdur. İclasda geniş məruzə ilə çıxış edən Göyçay Rayon İcra Hakimiyyətinin başçısı Mehdi Səlimzadə demişdir:

- Hökumətin uğurlu fəaliyyətini şərtləndirən əsas amillərdən biri görülən işlər və qarşıdakı vəzifələr barədə ictimaiyyətə mütəmadi hesabatların verilməsidir. Səmərəli və şəffaf idarəçiliyi hökumətin mühümvəzifələrin dən biri kimi müəyyənləşdirmiş Azərbaycan Prezidenti İlham Əliyevin idarəçilik konsepsiyasında bu prinsip daim önə çəkilir. Xüsusən Prezident İlham Əliyevin yanında müşavirələrin, regionların sosial-iqtisadi inkişafı Dövlət Proqramlarının icrasına həsr olunmuş konfransların keçirilməsi, sosial və iqtisadi həyatımızda baş verən yeniliklər və nəzərdə tutulan işlər barədə geniş hesabatların verilməsi ictimaiyyət tərəfindən rəğbətlə qarşılanır. Belə iclasların keçirilməsi Azərbaycan hakimiyyətinin öz fəaliyyətini açıq və şəffaf şəkildə həyata keçirməsini əyani təsdiq edir.



Bu, bir daha göstərir ki, insanların hakimiyyətə olan etimadını, həmçinin uğur və nailiyyətləri şərtləndirən mühüm amillərdən biri sosial məsuliyyət prinsipidir. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin yanında 2019-cu ilin yekunlarına həsr olunmuş müşavirədə də ötən il ərzində görülmüş işlərə nəzər salınmış, hökumətin qarşısında duran vəzifələrə bir daha aydınlıq gətirilmişdir.

### *Uğurların stimullaşdırılması*

2019-cu il də Göyçay rayonunda da sosial-iqtisadi inkişafın sürətləndirilməsi, tikinti, quruculuq və abadlıq işlərinin həyata keçirilməsi, yeni istehsal, ticarət və xidmət obyektlərinin inşa edilməsi istiqamətində bir sıra tədbirlər həyata keçirilmişdir. Hesabat ilində Göyçay rayonunda iqtisadiyyatın əsas sahələri üzrə istehsal olunmuş məhsul və xidmətlərin ümumi həcmi 351,8 milyon manat olmuşdur ki, bu da əvvəlki ilə nisbətən 17,1% çoxdur. Rayonun sənaye müəssisələrində məhsul istehsalının həcmi 25,9% artaraq 46,0 milyon manat təşkil etmişdir.

**Ötən il aqrar sahədə daha çox uğurlar əldə edilmiş, 2018-ci ilə nisbətən taxıl istehsalı 4843,6 ton artmış, hər hektardan məhsuldarlıq 30,6 sentner təşkil etmişdir. Aqrar bölmənin aparıcı sahələri olan meyvəçiliyin və faraş tərəvəzçiliyin inkişaf etdirilməsinə diqqət daha da artırılmış, əvvəlki ilə nisbətən meyvə istehsalı 9,2 min ton artaraq 73,5 min ton təşkil etmişdir. Ötən il rayonda meyvə bağlarının əkin sahələri 129,3 hektar artaraq 6335 hektara çatmışdır ki, bunun da 5869,9 hektarı və ya 92,7%-i bar verən meyvə bağlarıdır.**

Ötən il rayonda 48,6 min ton və ya əvvəlki ilə nisbətən 11,5% çox tərəvəz istehsal edilmişdir. Fərdi təsərrüfatlarda istehsal edilmiş faraş tərəvəz məhsulunun böyük hissəsi ixrac olunmuş və təsərrüfat sahiblərinə xarici valyutada gəlir gətirmişdir.

Rayonda kənd təsərrüfatı bitkilərinin əkin sahələrinin genişlənməsinə və məhsul istehsalının artımına "Kənd təsərrüfatı məhsulları istehsalçılarına dövlət dəstəyi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2007-ciil 23 yanvar tarixli 1907 nömrəli sərəncamı böyük təkan vermişdir. 2019-cu ildə rayon üzrə istifadə etdikləri yanacaq və motor yağlarına görə dövlət büdcəsinin vəsaiti hesabına 6297 nəfər kənd təsərrüfatı məhsulları istehsalçısına 1 milyon 226 min manat yardım verilmişdir. Ölkə Prezidentinin baramaçılığın inkişafı ilə bağlı tapşırıqlarına müvafiq olaraq müəyyən tədbirlər həyata keçirilmiş, 16557 kq barama tədarük edilmişdir ki, bu da 2018-ci ilə nisbətən 32,5% çoxdur. Baramaçılığın yem bazasının yaradılması istiqamətində əməli tədbirlər davam etdirilmiş, ötən il rayonun kəndlərində Çin Xalq Respublikasından gətirilmiş 120 min ədəd, Ekologiya və Təbii Sərvətlər Nazirliyi tərəfindən göndərilmiş 22,2 min ədəd tut tingi əkilmişdir.

2019-cu ildə kənd təsərrüfatı ümumi məhsulunun faktiki qiymətlərlə dəyəri 123,8 milyon manat təşkil etmişdir ki, bu da əvvəlki illə müqayisədə 14,3 milyon manat və 8,4% çoxdur.

Ötən il rayonun iqtisadi və sosial sahələrin inkişafı üçün əsas kapitala bütün maliyyə mənbələrindən 70,4 milyon manat investisiya yönəldilmişdir ki, bu da əvvəlki ilə nisbətən 2 dəfə çoxdur. Tikinti quraşdırma işlərində istifadə olunmuş investisiyaların həcmi ötən ilə nisbətən 96,7% artaraq 57,5 milyon manat təşkil etmişdir.

Hesabat dövründə əhalinin həyat səviyyəsi xeyli yaxşılaşmış, pərakəndə əmtəə dövriyyəsinin həcmi 1,3%, əhaliyə göstərilən pullu xidmətlərin həcmi 2,9% artmışdır.

***Ötən il rayon əhalisinə göstərilən rabitə və poçt xidmətinin səviyyəsi xeyli yüksəlmiş, daha müasir rabitə texnologiyalarının tətbiqi ilə əlaqədar internet istifadəçilərinin sayı əsaslı şəkildə artmış, əhaliyə 1,2 milyon manatlıq rabitə və poçt xidmətləri göstərilmişdir.Telekommunikasiya xidmətinin yaxşılaşdırılması istiqamətində tədbirlər həyata keçirilmiş, rabitə xəttlərində təmir və bərpa işləri aparılmış, telefon rabitəsindən istifadə edən abonentlərin sayı 235 vahid, internet istifadəçilərinin sayı 830 vahid artmışdır.***

Rayon əhalisinin içməli su, elektrik enerjisi və təbii qazla təchizatının yaxşılaşdırılması sahəsində bir sıra tədbirlər həyata keçirilmişdir. Şəhəri içməli su ilə təmin edən nasos stansiyasına 2 ədəd su ötürücü və 2 ədəd subartezian nasosu quraşdırılmış, mərkəzi nasosxanada 3 ədəd istismar müddətini bitirmiş suötürücü nassoslar yeniləri ilə əvəz edilmişdir.

Bığır və Hacalıkənd kəndlərində əhalinin içməli su ilə təminatının yaxşılaşdırılması üçün 5 ədəd su bulağı quraşdırılmışdır.

Ötən il rayonun elektrik təsərrüfatının əsaslı yenidən qurulması işləri davam etdirilmiş, əhalinin, müəssisə və təşkilatların elektrik enerjisi ilə təminatının etibarlılığını artırmaq üçün rayonun 11 kəndində istismara yararsız transformatorlar dəyişdirilmiş, 2 kənddə əlavə olaraq 100 kVA-luq gücündə transformator məntəqələri quraşdırılmışdır. 228 ədəd 0,4 kV-luq, 50 ədəd 10kV-luq dayaqlar yeniləri ilə əvəz edilmiş, 42203 metr uzunluğunda elektrik naqilləri yükünün özüdaşıyan naqillərlə əvəz edilmiş, Göyçay şəhərində 18 transformator məntəqəsinin, Veysəlli kəndinin 0,4 kV-luq fiderlərində kabelləşdirmə işləri başa çatdırılmışdır.



**Hesabat dövründə əhalini uzun müddət narahat edən təbii qazla təminatdakı çətinliklər aradan qaldırılmış, rayon ərazisindəki qaz paylayıcı stansiyalardan təbii qazın tələbata uyğun ödənilməsi təmin edilmiş, normal qaz təzyiqi əldə etmək üçün yaşayış məntəqələrini təbii qazla təmin edən daşıyıcı kəmərlərdə qaz tənzimləyici qurğular quraşdırılmışdır.**

**(ardı növbəti sayımızda)**

**Məzahir ƏHMƏDZADƏ**